


**Əliyev Aqil Faiq oğlu**

Aqil Faiq oğlu Əliyev 10 yanvar 1999-cu ildə Tovuz rayonunun Pələkli kəndində anadan olub. 2005-2013-cü illərdə V. Rəhmanov adına Pələkli kənd tam orta məktəbində təhsil alıb.

Aqil Əliyev 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Aqil Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Aqil Əliyev oktyabr 15-də Suqovuşan ətrafında gedən döyüşlər zamanı şəhid olub. Tovuz rayonunun Pələkli kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə əsgər Əliyev Aqil Faiq oğlu "Vətən uğrunda" medalı ilə təltif edilib.